

# TƏBRİK EDİRİK!

## "Tərəqqi" medalı ilə təltif olundular

**Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev** bu il noyabrın 7-də ölkədə televiziya və radio sahəsində çoxillik səmərəli xidmətlərinə görə bir sıra şəxslərin təltif olunmaları barədə sərəncam imzalayıb. Etimada layiq görülənlər sırasında mühacir övladları **Həsən Xəlil oğlu Cəbrayılov (Ahəngi)** və **Rabiya Novruz qızı Səyyadi** də var.

Respublikada və onun hüdüdlarından kənarda əsasən görkəmli parodiyaçı kimi tanınan Həsən 48 ildir ki, "Azərbaycan Teleradio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində çalışır. Video-kino materialları şöbəsinin müdir müavinidir.

**Rabiya xanım** isə radio jurnalistidir. Dolğun verilişləri ona minlərlə dinləyicinin rəğbətini qazandırıb.

Cəmiyyətimiz ömür-günlərini Azərbaycan teleradiosunun fəaliyyətinə, inkişafına bağlayan hər iki həmvətənimizin səmərəli xidmətlərinin yüksək səviyyədə dəyərləndirilməsindən qürur hissi keçirir və təltif olunanlara təbriklərini yetirir. Biz belə diqqət və qayğının stimullaşdırıcı əhəmiyyətini vurğulayır, bunu mühacirlərə, onların övladlarına həssas münasibət sahəsində formalaşmış ənənənin davamı hesab edirik.

**İranlı Mühacirlər Cəmiyyəti bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevə minnətdarlığını bildirir, ona səmimi duyğularını yetirir.**

**"İranlı Mühacirlər Cəmiyyəti" İçtimai Birliyi**

# Azərbaycan Milli Məclisinin qərar və qanunları

**21 Azər 1324(12 dekabr 1945)**
Milli Hökümətin yaranması haqqında qanun.
**29 Azər 1324(20 dekabr 1945)**
Məhbusların bağışlanması haqqında qanun.
**30 Azər 1324(21 dekabr 1945)**
Səttarxanla Bağırxanın heykəllərinin ucaldılması və Rza şahın heykəlinin götürülməsi haqqında qərar.
Xalq qoşunlarının yaranması haqqında qanun.
**1 dey 1324 (22 dekabr 1945)**
Mülki şəxslərin məhkəməsi haqqında qanun.
Cəza orqanının islahı haqqında qərar.
Gəlirdən vergi qanununun düzəlişi haqqında qərar.
**18 dey 1324(8 yanvar 1946)**
Bələdiyyə seçkiləri haqqında 14 nömrəli qərar.
Vilayətlər, mahallar və bölgə əncümənləri seçkisi haqqında 13 nömrəli qərar.
**22 dey 1324(12 yanvar 1946)**
Maarif Nazirliyinin 3 aylıq büdcə layihəsinin qəbulu haqqında 15 nömrəli qərar.
**10 bəhmən 1324(30 yanvar 1946)**
Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin 3 aylıq büdcəsi haqqında qanun.
**13 bəhmən 1324(2 fevral 1946)**
Maarif Nazirliyinin gecə məktəbinin açılmasına vəsait ayrılması haqqında qanunu.
Ərdəbildə Şeyx və Seyid Cəbrayıl məqbərəsinin bərpası üçün büdcə qanunu
**16 bəhmən 1324(5 fevral 1946)**
Hərbi qulluq haqqında qanun.
**27 bəhmən 1324(16 fevral 1946)**
Müsadirə haqqında qanun.
İstifadə olunmayan dövlət əmlakının xalq arasında bölünməsi haqqında qanun.
**28 bəhmən 1324(17 fevral 1946)**
Ali məhkəmənin yaradılması haqqında qanun.
Hərbi Tribunal Məhkəməsinin yaradılması haqqında qanun.
Mətbuat haqqında qanun.

## *Qambiyalı futbolçu Avropaya mühacirət edərkən suda boğularaq ölub*



Qambiyanın qadın futbolçulardan ibarət yığma komandasının qapıçısı Aralıq dənizində boğularaq ölüb. Bu barədə Qambiya Futbol Federasiyası məlumat yayıb. Bildirilib ki, 19 yaşlı Fatim Javara ötən ay Liviyadan Avropaya mühacirət edərkən qayığın batması nəticəsində ölüb.

Beynəlxalq Miqrasiya Təşkilatının (BMT) yaydığı məlumatda aclıq və müharibə səbəbindən ölkələrindən getməyə çalışan 4200-dən çox adamın bu il Aralıq dənizində itkin düşdüyünü bildirib.




# Görkəmli inqilabçının, ictimai-siyasi xadimin həyat yoluna nəzər salındı




Görkəmli ictimai-siyasi xadim, inqilabçı, Azərbaycan Demokrat Firqəsinə uzun illər sədrlik edən general Qulam Yəhya Daneşaninin anadan olmasının 110 illik yubileyi "Mübarizədə keçən ömür" silsiləsindən tədbirlərlə yadda qalıb. "İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin həyata keçirdiyi həmin tədbirlərdə bu qurumun üzvləri ilə yanaşı müxtəlif təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri və jurnalistlər iştirak ediblər.

Öncə onlar Ulu Öndərimiz Heydər Əliyevin, Azərbaycan Demokrat Firqəsinin və Milli Hökumətinin rəhbəri olmuş Seyid Cəfər Pişəvərinin, general Qulam Yəhyanın Fəxri Xiyabandakı abidələrini ziyarət ediblər. Burada səslənən çıxışlarda yubilyarın həmin şəxslərlə taleyinin kəsişdiyi məqamlara xüsusi diqqət çəkilib, Ümummilli Liderin mühacirət illərində Qulam Yəhyaya, onun sədri olduğu təşkilatlara, mühacirlərə necə həssas yanaşması ehtiram hissi ilə yad edilib.

Beynəlxalq Mətbuat Mərkəzində düzənlənən tədbiri isə Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri Valeh Quluzadə açıb. Sədr "Mühacir" qəzetinin yeni sayının yubilyarın həyat və mübarizə yoluna, onu yaxından tanıyan insanların xatirələrinə, təəssüratlarına həsr olunduğunu deyərək çıxışında əsas diqqəti şəxsi keyfiyyətlərinə, prinsipiallığına yönəldib: "Firqəmiz və mühacir təşkilatımız 71 ildir ki, varlığını qorumaqda, funksional fəaliyyətini davam etdirməkdədir. Bu, qurumlara rəhbərlik etmiş hər şəxsin müstəsna xidmətinin nəticəsi olsa da Qulam Yəhya faktoru daim mühüm əhəmiyyət daşıyıb".

Sonra iştirakçılar 71 il əvvəl Təbrizdə bəstələnən, naməlum şəxs tərəfindən ifa olunan "Yaşasın general Qulam Yəhyanı" marşını alqışlarla dinləyiblər. "İranlı Mühacirlər Cəmiyyəti" İB-nin sədri Rəhim Hüseynzadə 1906-cı ildə Sərab mahalının Əskərabad kəndində dünyaya gələn Qulam Yəhyanın ömür qismətinə düşən üç mühacirətin hər bir mərhələsi barədə müfəssəl məlumat verib. Rahatlığın onun yaşam tərzinə zidd olduğunu deyərək istər Azərbaycanda sovet hakimiyyətinin qurulmasınadək həmkarlar ittifaqı rəhbəri, sonralar isə bir sıra vəzifələrdəki fəaliyyəti, istər "21 Azər" Hərəkatının qələbəsinədək qarşılaşdığı üzüntülər, istərsə də mühacirətdə minlərin hərtərəfli qayğılarının həlli yolundakı cəfakeşliyi barədə konkret misallar gətirib.

R.Hüseynzadə məhz bunların nəzərə alınaraq ADF və İMC tərəfindən "Qulam Yəhya - 110" fəxri diplomunun təsis olunduğunu bildirib. Əlavə edib ki, ilk diplomun yubilyarın oğlu, cəmiyyətin İdarə Heyətinin üzvü, mühəndis Bəhram Daneşaniyə verilməsi qərara alınıb:"İstərdik ki, yubilyarla uzun illər çiyin-çiyinə işləmiş, onu İrandan tanıyan, 85 yaşlı həkim, həm də İdarə Heyətinin üzvü Adilə Çernikbülənd mükafatı təqdim etsin ".

Adilə xanım diplomu təqdim etməzdən əvvəl son 70 ildə şahidi olduğu hadisələrdən danışıb, Qulam Yəhyanı bir rəhbər və insan kimi xarakterizə edib.

Tədbirdə iştirak edən Qızıl Aypara Cəmiyyətinin təmsilçisi Niyaz Eyvazov B.Daneşaniyə diplom, "Dədə Qorğud Fondu"-nun rəhbəri, "Azərbaycan Dünyası" jurnalının baş redaktoru Eldar İsmayıl xüsusi mükafat təqdim ediblər. A.Çernikbülənd isə "Dədə Qorqud" mükafatı verilib.

Tədbirdə İsveçdən, Almaniyadan, Hollandiyadan, Qazaxıstandan İMC-yə ünvanlanan təbriklər olunub. İran Xalq Partiyasından Məhəmməd Müqəddəm və Xalq Fədailəri Partiyasından İbrahim Şiri həmin təşkilatlardan göndərilən təbriklər də oxuyublar.

Azərbaycan Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Solmaz Rüstəmova (Tohidi), politoloq Məmməd Əlizadə və başqaları çıxışlarında bu kimi tədbirlərin tariximizin daha dərindən öyrənilməsi, təbliği baxımından əhəmiyyətindən söhbət açıblar.

# "MÜHACİR" QƏZETİNİN BAŞ REDAKTORU RƏHİM HÜSEYNZADƏYƏ AÇIQ MƏKTUB

**Hörmətli Rəhim müəllim!** ”İranlı Mühacirlər Cəmiyyəti” İctimai Birliyinin mətbu nəşri olan ”Mühacir” qəzetinin 19 illik fasilədən sonra Sizin baş redaktorluğunuz ilə 2016-cı ildə ilk, ümumilikdə isə 96-cı sayının əlamətdar bir tarixdə- Azərbycan Demokrat Firqəsinin yarandığı gündə işıq üzü görən nömrəsini birinci cümləsindən sonuncu kəlməsinədək, necə deyərlər, acgözlüklə oxudum. İlk baxışda şişirdilmiş kimi görünən ”acgözlüklə” ifadəsi Sizə qəribə gəlməsin. Tam səmimiyyətimlə deyirəm ki, bu mətbu nəşrin timsalında həqiqətən son bir neçə onillikdə ilk dəfə qəzet səhifələrində hər cür populizmdən, xüsusilə siyasi intiriqalardan, dedi-qodulardan, firqə, qrup maraqlarından, necə deyərlər, kimlərinsə ”bostanına daş atmaq” niyyətindən uzaq yazılara rast gəlirdim. Qəzetinizin uzun fasilədən sonra işıq üzü görən ilk sayında əsasən mühacir həyatının məziyyətləri bir anda xəyalən gözlərim önündən kino lenti kimi gəlib keçdi. Həmin o ağrılı-acılı illərdən xeyli sonra dünyaya gəlsəm də özümü bu məcburi mühacirlərin, onların övladları olan sizlərin yerində hiss etdim. Və bir azərbaycanlı olaraq 70 il bundan əvvəl heç bir haqq, hüquq tanımayan azğınlaşmış şah rejiminin növbəti dəfə (ondan əvvəl qaniçən rejimin Səttarxanın, Şeyx Məhəmməd Xiyabaninin və digər qəhrəman ata-babalarımızın rəhbərlik etdikləri milli-azadlıq hərəkatlarını qan içində boğmasını xatırlayaq) qəddar siyasəti nətcəsində öz doğma ocaqlarını tərk etməyə məcbur olmuş soydaşlarımızın taleyinə bir daha qəlbən acıdım.

Elə bu hisslərin təsiri altında hazırda planetimizin əsas ağrı-acısına çevrilmiş, ”Qordi düyünü” kimi açılması müşkül olan, hələlik yalnız Avropa qitəsində (bu gedişlə problemin yaxın gələcəkdə bütün dünyanı ağuşuna alacağı şəksizdir) sürətlə yayılmaqda olan mühacirət (Qərbdə bu binəsib insanlara ”miqrant” və başqa alçaldıcı adlar qoyulmasına baxmayaraq artıq kəsə məlumdur ki, problemin kökündə məcburi mühacirət anlayışı dayanır) dalğasının səngimək bilmədiyi bir vaxtda ”Mühacir” qəzetinin nəşrini bərpa etməsi, elə ilk sayındaca adına, məramına, məqsədinə uyğun olaraq məcburi mühacirətçiliyin təkcə ayrı-ayrı fərdlərin, toplumların, ailələrin deyil, bütövlükdə minlərin faciəsini, müsibətini real həyat hadisləri əsasında qabartması məni bir həmkar, bir oxucu və nəhayət bir vətəndaş kimi Sizə açıq məktub yazmağa sövq etdi.

**Hörmətli Rəhim müəllim!**

Siz ötən əsrin ortalarında siyasi mülahizələrə görə Arazın o tayındakı doğma yurd-yuvasından mühacirət etmək məcburiyyətində qalmış ”demokratlar”dan birinin övladı olaraq bilməmiş deyilsiniz ki, siyasi ədəbiyyatda mühacir sözünün mənası siyasi, iqtisadi və ya dini səbəbdən məcburi və ya könüllü olaraq öz vətənini tərk edib başqa ölkəyə köçmək kimi səciyyələndirilir. Başqa sözlə, hər hansı bir vətəndaşın siyasi , dini baxışları yaşadığı cəmiyyətin mövcud reallıqları ilə uzlaşmadıqda, ölkənin iqtisadi, sosial sistemi onu qane etmədikdə digər ölkəyə mühacirət etmək yolunu seçir. Bilmirəm bu kriteriyaların şərtləndirdiyi mühacir anlayışını ötən əsrin ortalarında ölkədə siyasi repressiyaların dözülməz həddə çatması ilə əlaqədar İrandan Azərbaycana məcburən pənah gətirmiş minlərlə soydaşımıza şamil etmək nə dərəcədə doğrudur? Açığını deyim ki, şəxsən mən ağlım söz kəsən, əlim qələm tutan gündən 1946-cı ilin dekabrında Azərbaycan Milli Hökumətin süqutundan sonra özlərini və ailələrini qəddar şah rejiminin amansız repressiyalarandan xilas etmək üçün misli görünməmiş çətinliklərlə Azərbaycan Respublikasına gəlmiş iranlı soydaşlarımızı ”mühacir” adlandırmaqda çətunlik çəkirəm. Ən azı ona görə ki, öz Vətəninin, xalqının, torpağının sözün əsl mənasında fədaisi olan, bunu XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri- Seyid Cəfər Pişəvərinin başçılığı ilə Arazın o tayında Milli Hökumətin qurulmasında və formalaşmasında, bu muxtar dövlətin mövcud olduğu bir il ərzində gördükləri misilsiz işlərlə sübut edən qəhrəman, vətənpərvər soydaşlarımızın heç biri öz doğma ocağını könüllü tərk etməyib. Doğrudur, bu soydaşlarımız üçün Azərbaycan Respublikası da Vətəndir və onların hər birinin Azərbaycanın bərabərhüquqlu vətəndaşı olaraq son 70 ildə ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrinə verdiyi əvəzsiz töhfələri saymaqla qurtarmaz. Amma, şübhəsiz, Siz də mənimlə razılaşarsınız ki, bu gün müstəqil və demokratik dövlət kimi dünyada böyük nüfuz, hörmət qazanmış respublikamızda günləri nə qədər xoş, həyatları nə qədər firavan keçsə də hər bir iranlı soydaşımızın içində daim yurd nisgili göynəyir. Bunu mən şəxsən hələ Yevlaxda yaşayıb işləyərkən bu şəhərdə hamının böyük hörmət bəslədiyi ”demokratlar” (şəhərimizdə hamı onları belə adlandırırdı)- Novruz Nicati, Məhəmməd Həsənxani, Firudin Nurani (Allah hər birinə rəhmət eləsin) ... onların övladları olan həmyaşıdlarım Növzər Həsənxani, Namiq Nurani və başqaları ilə ünsiyyətim zamanı həmişə duyub hiss etmişəm. Bugünkü kimi yadımdadır, İranda 1979-cu il 11 fevral inqilabının qələbəsindən sonra Azərbaycan Demokrat Firqəsinin Yevlax şöbəsinin şəhərin mərkəzində- dəmiryol stansiyasının yaxınlığında yerləşən qərargahında hər gün səhər tezdən axşamdan xeyli keçənədək qələbəlik Hökm sürürdü. Azərbaycan türklərinin qanına susamış qəddar şah rejiminin süqutundan sonra nəhayət İranda bütün xalqların, o cümlədən bu ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən azərbaycanlıların haqqını, hüququnu tanıyan demokratik xalq hakimiyyətinin qurulacağına öz varlıqları qədər inanan ”Yevlax demokratları” daha da təşkilatlanır, hər gün keçirdikləri müxtəlif tədbirlərdə ”gələcək demokratik İranda fəaliyyətlərinin əsas istiqamətlərini” müzakirə edirdilər.

Həmin vaxt mən Yevlaxda çıxan ”Təşəbbüs” qəzetinin redaksiyasında çalışan bir jurnalist kimi digər həmkarlarımla birlikdə bu tədbirlərə qatılır, orada müzakirə olunan məsələləri işıqlandırırdıq. Təbii ki, o illərdə ölkəmiz keçmiş Sovet İttifaqının tərkibində olduğuna görə bu yazılarda SSRİ hökumətinin maraqlarından kənara çıxmaq mümkünsüz idi. Lakin bununla belə tədbirlərdən hazıladığımız məqalələrdə ürəyi Vətən həsrəti ilə döyünən iranlı soydaşlarımızın doğma ocağa yönəlik hiss və həyəcanlarını qabartmağa çalışırdıq.

Nə isə, deyəsən mətləbdən çox uzaqlaşdım. Demək istəyirəm ki, bu hissləri 35 illik zaman fasiləsindən sonra yenə ölkəmizin paytaxtı Bakıda İranlı Mühacirlər Cəmiyyətinin tədbirlərində Siz də daxil olmaqla çox böyük əksəriyyəti Azərbaycan Respublikasında doğulub boya-başa çatmış və artıq ömürlərinin ahıllıq çağına qədəm qoymuş soydaşlarımızın nur saçan çöhrələrində, həyat eşqi qaynayan gözlərində görür və ”oxuyuram”. Məni təəccübləndirən, əgər belə demək mümkündürsə, heyrətə gətirən məqam odur ki, həmin tədbirlərdə ”21 Azər” Hərəkatının canlı simvolu Adilə xanımın Azərbaycan Milli Hökumətinin yaranmasından və fəaliyyətindən bəhs edən, hər kəsdə nikbinlik, işıqlı gələcəyə inam aşılayan şirin xatirələri, ”İranlı Mühacirlər Cəmiyyəti” ədəbi birliyinin sədri Tariyel Ümidin şeirləri, görkəmli parodiya ustası Həsən Cəbrayılovun ən ciddi, qaraqabaq adamı belə yerindən oynadan parodiyaları bu insanların çöhrələrində, gözlərində ”məskən salmış” nisgili, necə deyərlər, yuyub apara bilmir.

**Hörmətli Rəhim müəllim!**

Onu da deməliyəm ki, ”Mühacir” qəzetinin 19 illik fasilədən sonra, Azərbaycan Milli Hökumətinin süqutunun 70 illiyi ərəfəsində işıq üzü görən ilk nömrəsində yer alan biri-birindən maraqlı yazıları oxuyarkən dünyamızın məcburi mühacirət hərəkatının sağalmaz yaraları, ağır fəsadları ilə üz-üzə qaldığı bugünkü mürəkkəb tarixi dövrdə Sizin jurnalist kimi necə böyük və xeyirxah bir işə, əmələ baş vurduğunuzu duyub hiss etdim. Qəzetinizin ilk nömrəsində dərc olunmuş mühacir həyatının ağı-acılarından bəhs edən yazılardan çıxardığım nəticə bu oldu ki, əgər 70 il bundan əvvəl ölkədə çoxluq təşkil edən, başlıca ”günahı” İran dövlətinin tərkibində demokratik və dünyəvi prinsiplərə əsaslanan muxtar qurum yaratmaqdan ibarət olan azərbaycanlıların bir xalq olaraq hüquqları ən vəhşi üsul və metodlarla tapdanmasaydı, onların azadlıq və hürriyyət haqları qan içində boğulmasaydı, bütövlükdə bir xalq, onun avanqard qüvvəsi olan Milli Hökumətin qurucuları qanına qəltan edilərək öz doğma yurd-yuvalarından didərgin salınmasaydı bu gün dünya Suriya, İraq, Əfqanıstan, Liviya və digər müsəlman ölkələrinin və xalqlarının timsalında məcburi mühacirət hərəkatının dəhşətli fəsadları ilə üz-üzə qalmazdı. Ən başlıcası artıq dəhşətli fəsadlarını bütün dünyanın, o cümlədən özlərini ən sivil toplumlar hesab edən ABŞ-ın və Avropanın yaşatmaqda olduqları beynəlxalq terrorizm bu dərəcədə meydan sulamazdı. Bu baxımdan hesab edirəm ki, ”Mühacir”in nəşrini bərpa etməsi məhz müasir dünyamızın reallıqlarından irəli gəlib. Sizin baş redaktor kimi qəzetin nəşrinin bərpası ilə bağlı aşağıdakı fikirləriniz də bunu bir daha sübut edir: ”Məqsədimiz heç də Azərbaycanda ötən 70 ildə məskunlaşan mühacirlərin və onların ailə üzvlərinin keçdikləri yola, uğurlara nəzər salmaq deyil. Biz bu gün dünyanı ağuşuna alan mühacirət probleminin reallıqlarını Azərbaycan mühacirəti kontekstində oxuculara çatdırmağı özümüzə başlıca vəzifə kimi qəbul etmişik.”

Nəcib məqsəd, gözəl niyyətdir, uğur olsun! ”Mühacir” elə ilk nömrəsində demokratik prinsiplərin, söz və mətbuat azadlığının hökmran olduğu müasir müstəqil Azərbaycan Respublikasında azad medianın inkişafı üçün yaradılmış münbit şəraitdən bəhrələnməklə bu yolda qarşılaşacağı hər bir problemin, çətinliyin öhdəsindən gələcəyini bəyan etmişdir. Hesab edirəm ki, bu, çox düzgün mövqedir və başqa cür ola da bilməz. Axı, bu məsələlərə dərindən varid olan bir insan kimi Siz bu gün həyatı cəhənnəmə çevrilmiş suriyalı, iraqlı, əfqanıstanlı, liviyalı qaçqınların, digər müsəlman qardaş və bacılarımızın mühacirətin əzablı yollarında düçar olduqları bəlalara biganə qala bilməzsiniz. Amma öz aramızdır, deyəsən, məsuliyyət yükünün ağırlığı Sizi bir az tərəddüd qarşısında qoyub. Bunu qəzetin ilk sayında baş yazı yerində ”Oxucularımıza” rubrikası altında dərc olunmuş qeydlərinizdə Sizdən ”əvvəl ”Mühacir”in sükanı arxasında dayananların haqq dünyasına kamil yazıçı, publisist, şair, tənqidçi, icmalçı kimi qovuşmalarını xatırlatmaqla büruzə vermisiniz. Bəli, bu narahatçılığınızda tamamilə haqlısınız. Həqiqətən nəinki XX əsr mühacir ədəbiyyatının, bütövlükdə həmin dövr Azərbaycan ictimai fikrinin nəhəng simaları sayılan Əli Tudə, Mədinə Gülgün, Balaş Azəroğlu, Söhrab Tahir və adlarını çəkə bimədiyim onlarla digər görkəmli şəxsiyyətlərdən sonra çiynini ”Mühacir”in yükü altına vermək çox böyük məsuliyyətdir. Şəxsən mən inanıram ki, bu gün müstəqil Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni və sosial həyatında aparıcı rolllardan birini oynayan sizlər- yuxarıda adlarını çəkdiyimiz nəhəng simaların xələfləri bu işin öhdəsindən uğurla gələcəksiniz.

**Sizə dərin hörmətlə:**
**Əhməd QURBANOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**